*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 339-348*
https://doi.org/10.62837/2024.4.339

**SULTANOV ƏLİCAN**
**Şirin İsmayılov adına 3 saylı**
**tam orta məktəb Siyəzən şəhəri**
**elicansultanov47@gmail.com**

# MƏNƏVİ İNCƏLƏMƏ

## XÜLASƏ

Hər bir fərd maddi (emosional), yəni təbiətcə sadəcə, canlı hadisədir. Hər hansı cəmiyyət məhz məişət həyatına oturmuş vahid orqanizm məzmunlu (Digər üzvlərin sağlığına xidmətdən doğan qədərlə hər bir üzvə xas təbii məmnunluğa yiyələnmiş yaşayış tərzi. Burada üzv faktoru rəmzi məna daşıyır, bəşəri sferada müxtəlif xarakterli cəmiyyətləri, əsasən, dövlətçilik hadisəsini təmsil edir.) qədəri ilə öz potensialını xarakterizə edir. Bəhs olunan xarakterik təqdimat isə vurğuladığımız maddi (emosional) təbəqənin mənəvi qata sərfiyyəti, fədakarlığı həcmində baş verir. Bu xərcləm faktoru özünün tam versiyası ilə bütünləşmiş, yarım versiyası ilə bu və ya digər natamamlığa malik qeyri-tam cəmiyyət anlayışını səciyyələndirir. Məsələn, aşağıdakı nümunələrə timsalən:

Qeyri-natamam cəmiyyətdə bir insan (qlobal çərçivədə hər hansı cəmiyyət halı) digərini layiq olduğu, natamam cəmiyyətdə isə tutduğu (mahiyyətcə zəbt etdiyi) mövqeyə görə dəyərləndirir.

Təəssüf ki, XXI əsrin özündə də əksər insanlar (və əlbəttə ki, onların təşkil etdiyi ayrı-ayrı cəmiyyətlər, əsasən, dövlətlərlə bərabər bu cəmiyyətlərin tam təqdimatına aid cümlə bəşəriyyət) bir gün torpaq olacağını sadəcə olaraq, qəbul edir. Müəyyən (ağıllı) insanlar isə bu məqamı dərk edir, nəhayət, istisna kəslər (yəni dahilər) sözügedən reallıqla hesablaşır.

Yetkin cəmiyyətlərdə yaxşılıq etmək üçün bəhanə, qeyri-yetkin cəmiyyətlərdə isə səbəb axtarılır.

Əlbəttə ki, bəşəri mənada böyüklük, milli mənaya aid böyüklüyün bəşəri mənaya belə sığmayan hüdudsuzluğudur.

**Açar sözlər:** mənəvi bütünlük, emosional əxlaq, bəşəri əhəmiyyət, ictimai məzmun, insanlıq.

Hər bir insan öz doğuluşu ilə mənsub olduğu bir neçə intellekt növünün (ABŞ psixoloqu H.Qardnerin Çoxnövlü zəka nəzəriyyəsinə görə hər kəsin müəyyən bir intellekt növünə əksərən aidliyi daha münasib hal kimi götürülür. Lakin düşünmək olar ki, insanın hansı intellekt növü ilə, hansı miqyasda doğulduğu deyil; düşdüyü şərait və əsasən, yaşadığı cəmiyyətin əksər mənada məişət intellekti də daxil olmaqla hansı mənəvi xarakterə sahib olması daha həlledici rola malikdir.) timsalında x sayda elmi və ya bədii əsərin (ola bilsin ki, həm elmi, həm də bədii əsərlərin) xammal versiyası rəğmində həyata gəlir. (1.səh.5) Və sözügedən xammalı xüsusən, aid

olduğu cəmiyyətin məişət təfəkkürünün imkan verdiyi həddə özəl yaşayış devizinə çevirir. Nəhayətdə isə ciddi əsər şəklinə düşmək fürsəti qazanır. Bütünləşmiş cəmiyyətlərdə əksər çalarda, qeyri-bütün cəmiyyətlərdə isə qismən.

Bəs bütünləşmək nədən başlayır? Əlbəttə ki, insan bir beyin hadisəsi kimi 2 vacib qatdan ibarətdir: emosional və idraki.

Emosional qat 5 hiss üzvünün instinktiv şərtli (canlı orqanizmlərə xas maddi mövcudluq hadisəsi) təzahürünü əks etdirir. İdraki qat isə mənəvi, ən əhəmiyyətli mənada sağlam şüuri mövcudluğun səbəb-nəticə vəhdətli sistematik tamlığını (bütöv şəxsiyyət halını) təmsil edir. O təmsilçilik ki istənilən forma və məzmunlu cəmiyyətin cəmiyyət kimi mahiyyət gerçəkliyinin yeganə timsalıdır.

Bəli, biz emosional və idraki qat ifadələrini ictimailəşmiş (qeyri-termionoloji) versiyalar üzrə də qəbul edə bilərik: aidiyyətə rəğmən emosional qatı maddi qat, idraki qatı isə mənəvi qat anlamında götürməklə.

Hər bir fərd maddi (emosional), yəni təbiətcə sadəcə, canlı hadisədir. Hər hansı cəmiyyət məhz məişət həyatına oturmuş vahid orqanizm məzmunlu (Digər üzvlərin sağlığına xidmətdən doğan qədərlə hər bir üzvə xas təbii məmnunluğa yiyələnmiş yaşayış tərzi. Burada üzv faktoru rəmzi məna daşıyır, bəşəri sferada müxtəlif xarakterli cəmiyyətləri, əsasən, dövlətçilik hadisəsini təmsil edir.) qədəri ilə öz potensialını xarakterizə edir. Bəhs olunan xarakterik təqdimat isə vurğuladığımız maddi (emosional) təbəqənin mənəvi qata sərfiyyəti, fədakarlığı həcmində baş verir. Bu xərcləm faktoru özünün tam versiyası ilə bütünləşmiş, yarım versiyası ilə bu və ya digər natamamlığa malik qeyri-tam cəmiyyət anlayışını səciyyələndirir.

Vahid orqanizm xislətli yaşam tərzinin məişət sferasındakı təzahür qədəri maddi (emosional) beyin qatının mənəvi (intellektual, idraki) beyin həddinə məsrəfçiliyi (xərclənməsi) fonunda götürülsə də, öz-özlüyündə maddi (qeyri-düşüncəvi, emosional) təbəqə heç bir ictimai dəyər daşıyıcısı deyil. Lakin mənəvi həddə (idraki qata) xərclənmə ilə mənəviyyatdan da ziyada mənəvi qədər yaradır. Ən primitiv yanaşma üzərindən götürsək, 5 manat pulun maddi təhrik hissinin təsiri fonunda müəyyən çərəz və ya əyləncə istiqamətinə xərcləyə bilərik. Bununla bərabər, təfəkkür qatının diktəsi altında mənəvi gəlir imkanı daha məhsuldar olan kitab almaq seçimi də əlimizdədir. O kitab ki bizi öz düşüncə potensialı ilə (təbii ki, yetkin cəmiyyətin yetişdirdiyi bəlli müəllifə xas) mənəvi olumlu fəaliyyət arealımızın sərhədlərini sonsuzluq həddinə çatdırmaq iqtidarındadır.

Təbii ki, bu kimi sıravi məntiq təzahürləri məhz mənəvi sağlığı ilə həmahəng halda, yəni vahid orqanizm əqidəli həyat devizinə rəğmən bizi hər cür dilemmatik vəziyyətdən, həm də bütöv şəxsiyyət nümunəsi kimi çıxarmaq əzmindədir. (2.səh.28) Məsələn, güman edək ki, ağırlıq dərəcəsi yaşanılmayınca təsəvvür edilməyən bir yolun yolçusuyuq. Qalan yarım l suyumuz bizi gəldiyimiz yolun yarısından mənzil başına çatdırmaq gücündədir (Əgər son damcısını da nəzərə alsaq). Və sözügedən nöqtədə (təxminən yolun mərkəz yaxınlığında) qarşımıza heç bir su ehtiyatı qalmayan, qarşısında isə gələcəyi yol qədər gedəcəyi yol olan biri çıxıb. Uzun sözün qısası, əlimizdəki yarım l su son damcısının belə istifadəsi fonunda ya bizi, ya da qarşı tərəfi lazımi ünvana çatdırmaq həddindədir. Başqa sözlə, hər hansı tərəfə aid

ediləcək bir damcılıq sərfiyyət digər tərəfin öz ünvanına yetincə susuzluqdan ölməsini reallaşdıracaq, həmçinin bu reallıq hər iki tərəfə bəllidir.

Bu halda biz ictimai əhəmiyyətcə digər tərəfdən qat-qat önəmli olduğumuza əmin olsaq belə, yenə də suyu qarşı tərəfə, həm də mütləq mənada verməyimiz birmənalıdır. Bəs qarşı tərəf 1925-ci ildən etibarən təxminən 40 milyonluq soydaşımızın hüquqlarını tanımayan fars, yaxud da Şimali Azərbaycanı, demək olar ki, 200 ilə yaxın əsarətdə saxlayan rus olsa necə? Hətta onların bizə qarşı ən perspektivli aləti olan erməni olsa belə bu seçim dəyişməməlidir. Biz yenə də maddi qədərini mənəvi həddinə fəda etmək məsləki ilə yanaşıb, məişət səciyyəsini müəyyən etmiş, vahid orqanizm məfkurəli biri kimi, bəhs etdiyimiz miqdara xas suyu hər damcısı ilə bərabər qarşı tərəfə, həm də yeganə seçim variantı kimi təqdim etməliyik. Madam ki burada söhbət hətta bəşəri (təbii ki, bəşəriyyətin başlıca, müstəsna təmsilçisi kimi aidiyyətli kimlik üzrə həm də milli) məzmunda qarşı tərəfin deyil, bizim şəxsimizdən gedir. Əlbəttə ki, bəşəri miqyasda olan böyüklük milli mənaya aid böyüklüyün bəşəri mənaya belə sığmayan hüdudsuzluğudur.

Bəs vahid orqanizm əlaqəli münasibət gerçəkliyi bəşəri əhəmiyyətli mövcudluğu ilə mövcudluqdursa (Digər üzvlərin sağlığına xidmətdən öz xoşbəxtlik təminatı kimi həzz alan hər bir üzv dedikdə, bəşəriyyətin tərkib hissəsi sayılan bu və ya digər ölçü və təbiətə malik ayrı-ayrı cəmiyyət nümunələri də nəzərdə tutulur. Başqa sözlə, bir orqandakı nasazlıq orqanizmdəki digər orqanların sağlam fəaliyyətinə əngəl olduğu kimi bir nəfərin insani natamamlığı bir ailənin, bir ailənin mədəni yarımçıqlığı bir bölgənin, bir bölgənin etik bütünsüzlüyü bir dövlətin, nəhayət, bir dövlətin mənəvi yoxsulluğu bu dünyanın sağlıq problemindən xəbər verir. Və burada işlənən insani, mədəni, etik, mənəvi kimi ifadələr ictimai faydalılıq baxımdan vahid mahiyyəti üzrə vahid orqanizm qayəli yaşayış tipinin birbaşa təmsilçisi rolundadır), biz suyu qəbul edən tərəfi (bu qəbuletmənin bizim həyatımıza son verəcəyini bildiyi halda) vicdani kasadlqıdan əziyyət çəkən biri kimi təqdim etməkdə maraqlı olduğumuzu sərgiləmirikmi? Xeyr, çünki digərinin sağlığına xidmətdən doğan mənəvi məmnunluq hissini nəyin bahasına olsa belə, əldən verməmək təşəbbüsü yalnız və yalnız qarşı tərəfi dəyərləndirməyə səfərbər olmuş özünəqiymət hadisəsidir. Necə ki orqanizmimizin əsas idarəedici faktoru beynimizin inkişafa açıq təfəkkür qatıdır, eləcə də istənilən olğun cəmiyyətin (əsasən, dövlətlər və ümumilikdə bəşəriyyətin) strateji orqanı, daha dəqiq desək, idarki beyin hadisəsi birbaşa olaraq təhsildir.

Bildiyimiz kimi, can sağlığı, birinci növbədə, idraki sağlığın real göstəricisidir. (1.səh.5) Çünki digər bədən üzvləri aidiyyəti üzrə mədəni (idraki, ictimai) qata malik orqanın (beyinin) şüuri və fiziki funksionallığından daha çox faydalanır.

Məhz təhsilin də sağlıq durumu bəşəriyyət və onun ən ali təmsilçisi olan dövlətçilik (ictimai dəyər potensialı ictimai mərkəzdən məsələn, parlament tərəfindən sistemli şəkildə səfərbər edilən cəmiyyət forması) faktoru üçün eyni perspektivli dəyər daşıyıcısıdır.

Ümumiyyətlə, sağlıq şüur, ictimai faydalılıq isə şüuri (ictimai, mədəni) sağlıq hadisəsidir. Fiziki sağlıq isə qeyri-idraki xisləti ilə sadəcə, canlı orqanizm timsalı kimi insanlıq həddi üçün ən yaxşı halda vasitə roluna malikdir.

Biz idraki sağlığı ictimai (mənəvi) faydalılıq həcmində götürürüksə, deməli, mədəni şərtli (ictimai faydalı, qeyri-mənafeyönlü, subyektiv maraqdan kənar) mövqeyin zəifləməsi təfəkkür sağlığının itirilməsi anlamına gəlir. (2.səh.30) Bəli, cəmiyyətin idarəedici mexanizmi‾ təfəkkür qatı olan təhsilin də sağlıq vəziyyəti məhz onun ictimai aspektli (əxlaq səciyyəli) xarakteri ilə düz mütənasibdir. Və bir daha vurğulayaq ki, məhz bu xarakterin öləziməsi ilə düşünən beyin rolunu oynayan təhsilin sıradan çıxması, nəhayətdə bütün orqanizmin (əksər mənada bu və ya digər dövlətin) məhvə sürüklənməsi (hər hansı cəmiyyətə, əsasən, ayrı-ayrı dövlətlərə xas digər orqan və istiqamətlərin məhz təfəkkür timsalı olan təhsildən qaynaqlanmasına rəğmən) qarşısıalınmaz gerçəkliyə çevrilir.

Bəllidir ki, təcrübə elmdən, elm isə təcrübədən qaynaqlanır. Eyni zamanda paralel olaraq, təcrübənin elmi, elmin isə təcrübənin inkarı fonunda nümunə gətirmək də çətinlik doğurmur. Və bu həm elmi, həm də təcrübi hadisədir. Məsələn, psixologiya elminə görə, problemdən qurtulmağın ən səmərəli yolu problemin üstünə getməkdir. Bəs həyat bizə nəyi tədris edir? Məncə, xarakterik cəhətdən müəyyən problemlər var ki, onların nəinki üstünə getmək, hətta üzünə baxmaq da özlüyündə problemin stimulverici silahdaşına, enerji mənbəyinə çevrilir. Bununla bərabər, həmin problemləri görməzlikdən gəlmək onları zəiflədir, yolumuza çıxdıqda gülümsəyərək yolumuzu dəyişmək isə onların problem kimi mövcudluğunu, demək olar ki, heçə endirir.

Biz problemə (tək və ya cəm halı ilə) neqativ xislətli (təbiətli) insan fonunda da baxa bilərik. Həmin kəs ki mənən qeyri-olğun biri kimi öz ictimai qədərini qiymətləndirmək əzmində deyil. Və ya zamanını kiminsə yoluna çıxmaqla əritməsi elə mənəvi çəkisinə uyğun vəziyyətdədir. Yetkin insanın isə yolunu dəyişməkdənsə (formal məcrada, əqidəcə deyil), qeyri-münasib tərəfə enerji və vaxt sərfiyyatinə yol verməsi özlüyündə özünü qeyri-yetkin dəyərləndirmə məqamı kimi xarakterizə edir. Sözsüz ki, problem insanı təfəkkürcə daha çox böyüdən hadisələrdəndir. Lakin yanaşma mexanizminin sağlıq və səmərəlilik şərtində asılı vəziyyətdə. (Təbii ki, çəkdiyimiz misal təcrübənin elmlə razılaşmadığı paradoksallığa malik idi).

Elə təcrübənin də yanıldığı məqam üzrə misal çəkmək mümkündür. Məsələn, natamam cəmiyyətdə, əsasən, natamam sağlıqlı təfəkkürün yiyəsi kimi ətrafı geniş, yəni hörmətli birinə çevrilə bilərik. Aydın məsələdir ki, şəxsi keyfiyyətlərinin cılızlığı fonunda bizim bir növ tipik versiyalarımız nə xeyirdə, nə də şərdə bizi tək qoymayacaqlar. (Əlbəttə ki, formal şan-şöhrət naminə. Yəni özləri də belə bir gündə formal çoxluğun məzmunsuz diqqətinə ehtiyac duyacaq deyə). İstifadə etdiyimiz "formal" ifadəsinə diqqət etsək, aidiyyətli cəmiyyətin ayrı-ayrı üzvlərinə məxsus (məişət həyatından tutmuş dirnaqarası qazandığı ictimai mövqeyədək) detallı göstəriciləri nəzərdə tutur ki, əslində, sözügedən cəmiyyət üzvlərinin ətraf genişliyi (dost-tanış bolluğu) həqiqi ətraf genişliyini deyil, mənəvi cəhətdən ölgün daşıyıcılığlı

ifadə edən çoxluğun timsalıdır. Başqa sözlə, onlar bir-birindən subyektiv maraq mənbəyi kimi qidalanaraq, özlərini isbat (əslində, qeyri-isbat) edib və etməkdədirlər. O ki qaldı cəmiyyətin mövcud mənəvi sağlıq durumundan doğan sabahına bunun subyektiv çərçivədə (mədəni faydalılıq və ictimai obyektivliyə məhkum şərtli vahid orqanizm prinsipindən kənar) heç bir mənası olmadığı üçün qeyri-bütöv cəmiyyətə dair hər hansı üzv üçün hansısa müzakirə predmeti deyil.

Praktikanı bilmirəm, məncə, ictimai məzmunlu bütün elmlər etiraf edər ki, qeyri-yetkin cəmiyyətin şöhrətlisi olmaq, əsas etibarilə, şərəfli yaşayışdan üz döndərənlərin nəsibi olmaqda daha israrlıdır. (3.səh.8) İctimai əxlaqı və mənəvi bütövlüyü naminə aid olduğu natamam cəmiyyətin dırnaqarası hörmətlisi olmaqdan imtina edənlərin o dünyada cənnətlə müjdələnməsi bir növ "toydan sonra nağara" effektini xatırladır. Madam ki onlar mənəvi əqidəli biri kimi qismətlərinə düşən ömür miqyasında yaşadıqları ictimai mühitin (mənafeyönlü yaşayışı ənənəyə çevirmiş cəmiyyətin) diktəsinə rəğmən hər həyati anı bir ömürlük cəhənnəm misalı yaşayıblar. Ümumiyyətlə, İslami cəhətdən yanaşsaq, axirətin mövcudluğu kimi bir vacibatla hesablaşmaq zərurəti öz mahiyyəti timsalında nə arzuolunmazı arzuolunana, nə də arzuolunanı daha əhəmiyyətliyə çevirmək marağı güdür. Çünki axirət yaxşını yaxşılıqla qarşıladığı üçün istər-istəməz edilən hər bir yaxşılıq kimi yaxşılığı (niyyəti adil, motivi ictimai olan) qarşılıqlı, gözləntili (bir növ təmənnalı) xarakterə kökləyir. Bu da sözügedən yanaşmanı (atılan obyektiv səciyyəli addımı) aidiyyətli əhəmiyyətindən xaric edir.

Eyni zamanda bütünləşmiş birinin də cəhənnəm xofundan doğan insanlıq sevgisi mahiyyətcə sevgisizliyi təmsil etdiyi üçün (yəni sadəcə olaraq, "Sevdiyim üçün sevirəm" məsləyindən doğmadığı üçün) hətta köklü şəkildə səbəb olacağı nəticə dəyişimi ilə insanlığa doğru ciddi bir şey vəd etmir.

Bəs axirət insanlıq üçün nə dərəcədə labüddür? Birmənalı cavab kimi yetərincə. Çünki bəşəriyyət (eləcə də onun ayrı-ayrı cəmiyyətlər, dövlətçilik hadisəsi və insan faktoru ilə təmsil olunan müxtəlifölçülü üzvləri) kainatdan da mürəkkəb tədqiqat hadisəsi kimi öz nəticəvi konkretliyini tədrici proseduralllığı ilə sərgiləyir. İdraki inkişafı şərtləndirən bu tip gerçəkliyi əsas və vəsilə olduğu nəticələr həcmində dəyərləndirmək insan təfəkkürünün hər cür imkanlarından, həm də adi müşahidəyə sığacaq qədər böyük hadisədir.

Əgər tarixi aspektdən bəşəri səciyyəli (idraki inkişafın prosedural əhəmiyyəti ilə) hadisələrə nəzər salsaq, ibtidai icma quruluşu kimi tanınan dövrün (3,2 milyon il öncədən, əsasən, iş quldar dövlətçilik nümunəsinin formalaşdığı m.ö. IV minilliyin sonuna qədərki dövr) nəinki cəmiyyət, insan halı belə təfəkkür hadisəsi kimi, demək olar ki, özünü səciyyləndirmir. Yəni insanlıq vahid orqanizm xislətli perspektivə doğru heç bir göstəriciyə malik deyildi. Başqa sözlə, qarşılaşdığı problemlər fonunda insan beyninin inkişafyönlü dinamikası tam tədrici xarakter daşıdığı üçün konkret əhəmiyyətli xüsusu şərtləndirmirdi.

Üst Paleolitdən (m.ö.XXXV minillikdən) etibarən reallaşan nitq hadisəsinin idraki gerçəkliyi insanı insan kimi sərgiləyən cəmiyyət halının bioloji dərkindən (əsasən, qohumluq anlamından) kənara çıxmadı. (4.səh.11)

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 339-348*

Quldarlıq dövründə ictimai potensialı, vahid orqanizm biçimli perspektivi ictimai mərkəzdən idarə oluna bilən dövlətçilik məfkurəsinin ilkin təzahür formaları meydana çıxdı. Hətta VI əsrin sonları Afina və Roma dövlətlərinin fonunda ictimai dəyərli idarəçiliyə hüquqi status verən dövlətçilik mədəniyyəti klassik (nümunəvi) səciyyə daşısa da, bəşəri bütünlük xüsusən, məişət düşüncəsinə rəğmən sözgedən idarəçilik prinspini dəyərləndirmək gücündə olmadığı üçün bəhs olunan sivil hal qlobal həcmdə mövqe qazanmadı.

Deyə bilərik ki, quldarlıq dövründə insanlıq bir idraki sfera kimi canlı təbiətdən, həm də tam mənada ayrıldı. (Vahid orqanizm xassəli idarəçilik şərtlərini daha səmərəli şəkildə təqdim etmək potensiallı cəmiyyət ‾ dövlət faktorunu meydana gətirməklə). Lakin bu ayrılma vahid orqanizm şərtli reallığa arxa çevirməklə, həm də ondan qaçaraq uzaqlaşmağı təmsil etmiş oldu. (Dövlətçilik nümunəsi vahid orqanizm tipli həyatı, həm də hər bir dövlətin timsalında bəşəri bütünlüklə xarakterizə etmək imkanıdır. Bu imkanın dəyərləndirilib-dəyərləndirilməməsindən qeyri-asılı halda. Vahid orqanizm xislətli reallıq isə məhz öz gerçəkliyinə xas məzmunun dəyərləndirilməsi fonunda əhəmiyyət daşıyır).

Quldar səciyyənin iç üzünü sərgiləyən rəmzi işığa (vahid orqanizm aspektinə) arxa çevirərək həm də ondan qaçaraq uzaqlaşma faktı məhz onun ali cəmiyyəti (dövlətçilik mədəniyyətini) təmsilçiliyə qadir məfkurə həddi ilə insanlığı əşyavi səviyyədə istismara məruz qoymasında əksini tapır.

Bəli, burada ali cəmiyyət‾ dövlət anlayışı təfəkkür perspektivi ilə canlı təbiətdən tam qopmanı, vahid orqanizm təzahürünə arxa çevirməklə geriyə qaçma məqamı isə insan və ya hər hansı cəmiyyət faktorundan alətvari fonda istifadəni əks etdirir.

Feodalizm cəmiyyəti istismar vasitəsi kimi insanın alətvari halından deyil, torpaqdan yararlansa da, yenə də insanlığın ayaqlanması ənənəvi hal kimi gündəmdə qaldı. (3.səh.126) Sadəcə, birbaşa işğal və zorakılıq vərdişi dolayı şərtlə‾ torpaq tələbi ilə əvəzləndi. Və insan düşüncə hadisəsi olaraq (tədrici və qeyri-yaxın olsa belə, daimi məhsuldarlığı ilə seçilən mühüm sərvət mənbəyi kimi), əhəmiyyət kəsb etmədi. (Mahiyyəti üzrə bu onun quldarlıqla ortaq cəhəti sayılır). İnsanlığı ciddi təfəkkür hadisəsi və bunun fonunda ən vacib sərvət perspektivi həcmində dəyərləndirməyən sülalə hakimiyyəti nəinki kiminsə özünüifadə haqqını, heç ən vacib istiqamətdə belə (məsələn, idarəçilik mexanizmində), şəxsi seçim hüququnu da tanımadı. (Sülalə mütləqiyyətini də quldarlıq və feodalizmin ortaq xüsusiyyəti rəğmində görmək olar).

Feodalizm "işığa (vahid orqanizm məramına) arxa çevirib qaçma" devizinin sadəcə "qaçma" hissəsini yerimə vəziyyəti ilə əvəzlədi. (4. səh.96) Bir növ prosedural olaraq, tərəqqi potensialı olan idraki yönün səhv istiqamətdə olduğunu (vahid orqanizm məqamından üz çevirdiyi üçün) anladı. Məsələn, İngiltərə parlament (idarəetməni ictimai mərkəzdən tam təmsil etmək əzmində olan orqan) anlayışına xüsusi diqqət ayırdı (1215-1265). Lakin parlament nümunəsinin nəsli səciyyəsi insanın seçim haqqı üzrə dəyərləndirilməsini aşağılayıcı münasibətlə qarşıladı. (Qeyd

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 339-348*
etdiyimiz kimi, sülalə hakimiyyəti feodalizmin əsas xüsusiyyətlərindəndir. Və ondan imtina feodalizmə yox, kaptalizmə‾ insanı düşüncə perspektivinə görə, ən əsas sərvət mənbəyi sayan ictimai formasiyaya xas əlamətdir).

Silki nümayəndəli orqanda (Bu yanaşma tək İngiltərədə deyil, tədricən digər dövlətlərdə də xüsusi nüfuz qazandı.) Əsas seçim hüququna sosial təbəqələşmə istinadlı söz verilməsi bir ton zəhərə bir damcı bal qatımı effektini verdi. Başqa sözlə, zəhərin həcmi artdı bal isə bir damcı ümid vermək reallığını da itirdi. Yəni dəyər kimi meydana çıxan azad seçim hüququ ayaqlanmaqla (sosial təbəqələşmə aspektli səlahiyyət üzrə) meydana çıxmamaq məqamından daha məzlum vəziyyətə düşdü. Lakin onun meydana gəlməsi, həm də daha təcrübəli xarakterdə bir daha meydana gəlməsinə zəmin hazırladı. (Elə vahid orqanizm səciyyəsindən üz döndərməklə qaçmağın qaçmaq məqamı üzrə yerimə halı ilə əvəzlənməsi də sırf bu məqamı nəzərdə tutur. Yeganə dəyişim istiqaməti kimi).

Kaptalizm dövründə (1689-cu il “Hüquqlar haqqında bill” qanununun verilməsi ilə İngiltərnin parlamentli monarxiyaya çevrilməsindən bu günədək) insan faktorunun (eləcə də bu aspektdən istənilən cəmiyyət hadisəsinin vahid orqanizm prizması üzrə mövcudiyyətinin) təfəkkür daşıyıcısı olaraq, ən məhsuldar, təhlükəsiz və daimi (nəticə etibarilə, zaman uzaqlığına istinad etsə də) sərvət potensialı kimi (ictimai faydalı istifadəsi fonunda) dəyərləndirilməsi Qərbi Avropadan başlayaraq, hüquqi (haqqı tanınan) nümunəyə çevrildi. Bu dəfə sosial silklər üzrə yanaşmanın və sülalə mütləqliyinin fərdi insan potensialına, həm də ədalətli olaraq, uduzması hesabına. Eyni zamanda da insan layiq olduğu siyasi (dövlət idarəçiliyində‾ ictimai effektiliyinə görə, ən vacib mövqedə) səlahiyyət sahibinə çevrildi.

Lakin vahid orqanizm məsləkli yaşayışın bu gün də məişət düşüncəsi səviyyəsində öz təbii yerini almaması insanlıq faktorunu daha ağıllı formada əşyavi alətə çevirir, süni təcridedici əngəllər fonunda kölələkdən də cılız məzmunlu varlıq (əgər varlıq demək olarsa) şəklinə salır.

Süni intellekt, robototexnika səviyyəsində (Qeyd edək ki, XXI əsrin başlanğıcından kapitalizmdə IV sənaye inqilabı kimi tanınan süni intellekt və robototexnika faktı aparıcı sahələrin önəmli söz sahibinə çevrildi.) aparılan soyuq müharibə yanaşması (Onun ən qabarıq forması II Dünya Savaşının bitməsi ilə Sovet İttifaqının dağıldığı tarixi çərçivəyə aiddir. (2.səh.38) Lakin bu siyasi‾ strateji diktə məqamı müharibə hadisəsi kimi həmişə olub və bu gün də daha təhlükəli formada aparılır. Hərbi savaş isə onun tərkibi istiqamətidir.) vahid orqanizm aspektinə xidmət etmədiyi üçün emosional ‾ maddi beyin qatının təzahürüdür. Nəticə kosmik olsa belə, bəşəri dəyər və ictimai (mənəvi) faydalılıq məqamı gözlənilməyibsə, əxlaqi (idraki) beyin qatını təmsil etmir.

Məsələn, “Yaradılan silahın mənim cəmiyyətimə (və dolayısı ilə mənə) nə qədər xeyri var?” məqamından öncə “İctimai (eləcə də bəşəri) təhlükəsi nə qədərdir?” fakti müzakirə masasına çıxarıla bilər.

Kapitalizmdə (və onun ayrı-ayrı sənaye inqilabları dövründə) insanlıq üzünə işığa (vahid orqanizm məramına) çevirdi. Başqa sözlə, nəinki ayrı-ayrı cəmiyyət və

dövlətlərdə insanların hüquqi dəyərləndirilməsinə əsas yer verildi, hətta hər hansı cəmiyyət və dövlətçilik hadisəsi bəşəriyyətin vahid orqanizm halına uyğun şəkildə bir üzv, bir orqan təmsilçisi kimi dəyərləndirildi (formal da olsa). Nəticədə, bəşəri ‒ dünyəvi sülh və təhlükəsizliyə xidmət edən BMT, ATƏT kimi hüquqi qlobal təşkilatları yarandı. (3.səh.445) Və bir daha qeyd edək ki, bəşəri aspektli hüquq təmsilçiliyi güc mərkəzlərinin mənafeyinə müvafiq, formallığı ilə diqqət çəksə də. Yerdəyişmənin yenə də arxaya doğru, özü də getdikcə artan sürətlə reallaşması ən təhlükəli (üz işığa olduğu halda arxa müşahidə edilmədiyi üçün) yaşayış tərzinin (insani baxımdan) meydana çıxmasını şərtləndirdi. Və bunun məntiqi davamı kimi, strateji güc mərkəzlərinin mənafeyönlü münasibəti ifrat quldarlığı bəşəri ənənəyə çevirib, həyatın vahid orqanizm qatını tam sıradan çıxarmaqdadır. Və bu proses getdikcə öz dinamikasını artırıb, quldarlıqdan da qatı halı ilə diqqət çəkir. Üzüişığa olmaqla, işığın (vahid orqanizm şərtinin) əksinə‒ geriyə yüyürmənin timsalı kimi.

## Ədəbiyyat:

1. Şəmil Sadiq. "Ədəbiyyat". Bakı, "Çaşıoğlu", 2009
2. Metodika və Pedaqogika. Kurikulum. Bakı, "Təhsil Nəşriyyat -Poliqrafiya", 2022
3. Anar İsayev. "Ümumi tarix". Bakı, "Şərq-Qərb", 2020
Anar İsayev. "Azərbaycan tarixi". Bakı, "Şərq-Qərb", 2020.

**СУЛТАНОВ АЛИДЖАН**

## НРАВСТВЕННОЕ ИССЛЕДОВАНИЕ

## РЕЗЮМЕ

Каждый индивид является материальным (эмоциональным), то есть по своей природе просто живым событием. Любое общество характеризует именно свой потенциал содержанием единого организма, устоявшегося в бытовой жизни (Образ жизни, который достигается естественным удовлетворением, присущим каждому члену, рожденным служением здоровью других членов. Здесь фактор членства имеет символическое значение, он представляет общества различной природы в человеческой сфере, главным образом, феномен государственности). Характерное представление, о котором идет речь, имеет место в объеме потребления и самоотверженности нравственного слоя того материального (эмоционального) слоя, который мы выделили. Этот стоимостной фактор характеризует концепцию полноценного общества, завершенного с его полной версией, половинной версией характеризует понятие неполноценного общества, имеющего ту или другую неполноценность. Например, как показано в следующем примере:

В полноценном обществе человек (в глобальном контексте любое общество) ценит другого по заслуге, в неполноценном обществе он ценит занимаемое (по существу захваченное) им положение.

К сожалению, даже в XXI веке большинство людей (и, конечно, отдельные общества, которые они образуют, в основном наряду с государством полное представительство этих обществ, человечество) просто принимают, что однажды превратятся в землю. Определенные (умные) люди понимают этот момент, и, наконец, исключительные люди (т. е. гении) смиряются с рассматриваемой реальностью.

В зрелых обществах ищут оправдания, чтобы делать добро, а в незрелых – причину.

Конечно, величие в человеческом смысле – это необъятность национального чувства величия, даже не укладывающаяся в человеческое значение.

**Ключевые слова: моральная целостность, эмоциональная нравственность, человеческая значимость, общественное содержание, человечество**

**ALIJAN SULTANOV**

## SPIRITUAL REVIEW

## ABSTRACT

Each individual embodies a material (emotional) essence, simply constituting a living event by nature. Every society, in turn, constitutes a singular organism rooted in domestic life (A mode of existence born from nurturing the well-being of its members and attaining the inherent fulfillment present within each member. Here, the notion of ‘member’ holds symbolic significance, representing societies of diverse characteristics within the human realm, notably the phenomenon of statehood), which delineates their potential. The delineation at hand occurs through the balance between consumption and sacrifice within the spiritual layer of the aforementioned material (emotional) layer. This factor of expenditure epitomizes the concept of an incomplete society, one that coexists with its complete version yet bears some form of inadequacy in its partial manifestation.

For instance, within such an incomplete society, an individual (in any social context on a global scale) appraises others based on their merit, whereas in a complete society, evaluation hinges on the position one (essentially) holds.

Unfortunately, even in the 21st century, the prevailing sentiment among most people (and the individual societies they comprise, chiefly states and humanity as the full representation of these societies) is the acceptance of an eventual reduction to

mere land. Certain individuals (of intelligence) grasp this concept, while exceptional minds, (or geniuses), ultimately come to terms with this stark reality.

In developed societies, the pursuit of benevolence often requires justification, whereas in less developed ones, rationale is sought.

Undoubtedly, human greatness extends beyond individual moral integrity and emotional morality, encompassing the collective essence of humanity, which transcends ordinary human comprehension.

**Key words:** moral integrity, emotional morality, human significance, societal essence, humanity

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi: professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur**